


Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi Bakı Dövlət Universiteti | 28 fevral 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



“Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində təqdimat keçirilib səh. 3

“Qarabağ: Əcdadlarımızın mirası” sənədli filmi nümayiş olunub səh. 3

Milli mənəvi dəyərlər və media səh. 4

Klassikanı və müasirliyi birləşdirən tədqiqatçı: professor Firidun Hüseynov səh. 5

Tələbələrə “ActInSpace” yarışması haqqında məlumat verilib səh. 5

Gələcəyin fizikləri üçün qiymətli dərs vəsaiti səh. 6

BDU-da fəaliyyət göstərən Konfutsi mərkəzi səh. 8

BDU-da Kitab bağışlama günü münasibətilə aksiya keçirilib səh. 8

BDU-nun dissertantı Prezident mükafatına layiq görülüb səh. 8




BDU-da Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb →Səh.2



Çexiya Respublikasının Səfiri BDU-da olub →Səh.4



Litva Respublikasının Səfiri BDU-nu ziyarət edib →Səh.4



Təzyiqlər onu da “səhhətindən şikayətlənməyə” vadar etdi →Səh.7



Əli bəy Hüseynzadə haqqında ilk fundamental biblioqrafiya →Səh.7



## Beynəlxalq Ana Dili Gününə həsr olunan tədbir keçirilib

**Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin ana dili ilə bağlı fikirlərinin əks olunduğu videoçarx təqdim olunub**

BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru İradə Əliyeva, Rektorun elmi işlər üzrə müşaviri Aydın Kazımzadə, Universitetin Dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov və tələbələrin çıxışları dinlənilib, Ana dilinin inkişafı istiqamətində Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs olunub.

Elmi kitabxananın direktoru Nigar İsmayılova Ana dilinin tarixi, saflığının qorunması haqqında danışıb, 1970-ci ildə BDU-nun 50 illik yubileyində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilində çıxışı ilə bu dilin dövlət əhəmiyyətli tədbirlərə yol açdığını vurğulayıb, Azərbaycan dilinin incəliklərindən, onun zəngin ifadə çalarlarından, potensial imkanlarından söz açıb.

Bədii hissə ilə davam edən tədbirdə Elmi Kitabxananın əməkdaşları Xəlilova Səlihət Bəxtiyar Vahabzadənin “Ana Dili”, Mustafazadə Jalə isə Tofiq Bayramın “Ana Dilim” şeirlərini səsləndiriblər.

## Dünyanın məşhur ali təhsil ocaqları



Toronto Kanadanın ən böyük şəhərlərindən və dünyanın mədəniyyət mərkəzlərindən biridir. Burada iki milyon yarımdan çox insan yaşayır (şəhər ətrafını nəzərə alsaq 6 milyon). İnfrastrukturun inkişafı, dəqiqliklə işləyən bank sistemi, iş və istirahət üçün əla şərait, yüksək texnologiya kommunikasiyalar və rahat nəqliyyat qovşaqları Torontonu Şimali Amerikanın ən müasir və uğurlu şəhərlərdən biri kimi xarakterizə edir. Ölkənin elmi, mədəni və idman həyatı burada qaynayır. Toronto ilk andan insanı valeh edən böyük və səs-küylü şəhərdir. (Ardı səh. 6)



“Gənclər Günü”nə həsr olunmuş tədbir keçirilib →Səh.8



Mədəniyyət-yaradıcılıq Mərkəzində ilk ədəbi-bədii tədbir baş tutub →Səh.8



Medianın üçüncü gözü: dron jurnalistikası →Səh.7

# BDU-da Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

***Bakı Dövlət Universitetində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb. Faciə zamanı həlak olanların və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra rektor Elçin Babayev Xocalı soyqırımının erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsindən olduğunu bildirib.*** XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının xalqımıza qarşı törədilmiş cinayət olduğunu vurğulayan rektor Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə bu soyqırımına siyasi-hüquqi qiymət verildiyini diqqətə çatdırıb: "Xocalı soyqırımından 28 il ötməsinə baxmayaraq faciənin ağrı və acısı hələ də qəlbimizdə yaşayır. Bu hüznlü günlərdə Azərbaycan xalqı erməni millətçilərinin vəhşiliyinin qurbanı olmuş günahsız insanların əziz xatirəsini ehtiramla yad edir. Respublika Prezidenti İlham Əliyev tərəfindən Xocalı soyqırımının beynəlxalq aləmdə bütün dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasına başlanılması bu istiqamətdə görülən işlərin bariz nümunəsidir. Bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılması hər kəsin, o cümlədən universitet əməkdaşlarının vətəndaşlıq borcudur və hər birimiz üzərimizə düşən bu missiyanı layiqincə yerinə yetirməliyik".






***Xocalı hadisələri əsasında hazırlanmış qısametrajlı filmin nümayişindən sonra Mədəniyyət-yaradıcılıq Mərkəzinin təqdimatında ədəbi-bədii kompozisiya təqdim olunub.***

## Filologiya fakültəsində...

*Filologiya fakültəsində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş "Xocalını unutma!" adlı ədəbi-bədii tədbir keçirilib. Fakültənin professor-müəllim heyəti və tələbələrin iştirak etdiyi tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Filologiya fakültəsinin dekanı Elçin Məmmədov erməni millətçilərinin türk dünyasına qarşı apardıqları təcavüzkarlıq siyasətindən, xüsusilə ermənilərin xalqımızın başına gətirdikləri tarixi faciələrdən, Ümummilli Lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin işğal altında olan ərazilərimizin azad olunması uğrunda apardıqları ardıcıl və gərgin mübarizədən söz açıb.



Bədii hissə ilə davam edən tədbirdə erməni terrorizmini əks etdirən videoçarx nümayiş olunub, tələbələrin ifasında Xocalı soyqırımına həsr olunmuş şeirlər və musiqilər səsləndirilib, III kurs tələbəsi Məleykə Mirzəlinin "Şəhid məktubu" ssenarisi əsasında hazırlanmış səhnəcik təqdim edilib.

## Tarix fakültəsində...

*Tarix fakültəsində "Xocalı soyqırımı"nın 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə başəriyyətə qarşı törədilmiş tarixi cinayət zamanı qətlə yetirilmiş həmvətənlərimizin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.* Tarix fakültəsinin professoru İbrahim Zeynalov çıxış edərək qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeridib, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə amansız qəddarlıqla divan tutublar.

Tarix fakültəsinin dosenti Sevda Hüseynova, fakültə Tələbə Həmkarlar



Təşkilatının sədri Əli Babazadə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Xocalı soyqırımının təfərrüatlarından, erməni təcavüzkarlarının törətdikləri vəhşiliklərdən, cinayətin yaddaşlardan silinməyəcək dəhşətlərindən bəhs ediblər.

Sonda Xocalı hadisələri əsasında hazırlanmış videoçarx nümayiş olunub, tələbə Rauf Əliyev "Qarabağı verməm" adlı şeir səsləndirib.

## Kimya fakültəsində...



*Kimya fakültəsində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş "Xocalı Harayı" adlı ədəbi-bədii tədbir keçirilib. Tədbirdə faciə qurbanlarının və Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov, professorlar Teymur İlyaslı, Yasin Cəfərov, Namiq Şıxəliyev, tələbə Fidan Hüseynli çıxış edərək xalqımızın qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və bu soyqırımla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərdən danışıblar.

Ədəbi-bədii hissə ilə davam edən tədbirdə Xocalı hadisələri əsasında hazırlanmış videoçarx nümayiş olunub. Birinci kurs tələbələri Xocalı soyqırımına həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim ediblər.

## "Gənc istedadlar" liseyində...



*Bakı Dövlət Universitetinin (BDU) nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyində Xocalı faciəsinin qurbanları anılıb. Tədbiri "Gənc istedadlar" liseyinin direktoru Arif Bağırov açaraq ermənilər tərəfindən dinc əhaliyə qarşı törədilən soyqırımın təkcə azərbaycanlılara deyil, insanlığa qarşı törədilən cinayət olduğunu bildirib.*

Anım mərasimində faciə qurbanlarının və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Tarix fakültəsinin professoru Nuru Məmmədov və Xocalı soyqırımının şahidi Müşkünaz Əhmədova çıxış edərək ümumtəhsil müəssisələrində belə tədbirlərin keçirilməsilə ölkəmizin müstəqilliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının yad edilməsinin və Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmağın vacib olduğunu qeyd ediblər.

Tədbir lisey şagirdlərinin hazırladığı ədəbi-bədii hissə ilə davam edib.

Sonda Xocalı faciəsinin həqiqətlərindən bəhs edən videoçarx nümayiş olunub.

Qeyd edək ki, Təhsil Nazirliyinin "Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən "Gənc istedadlar" liseyində bu gün ilk dərslər Xocalı soyqırımına həsr edilib.

## BDU-nun Qazax filialında



*Bakı Dövlət Universitetinin Qazax filialında Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Mərasim tədbir iştirakçılarının filialın foyesindəki "Xocalı soyqırımı-1992" başlıqlı foto-stendə baxması ilə başlayıb.*

Filialın akt zalında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və soyqırım dəhşətlərini əks etdirən sənədli film nümayiş olunub.

BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov, ictimai fənlər kafedrasının müəllimi Mübariz Süleymanov, filialın müəllimi Ülviyyə Bayramova, tələbələr çıxış edərək Azərbaycanın üzləşdiyi işğal və etnik təmizləmə siyasətindən danışıblar, Xocalı soyqırımının Azərbaycan xalqının yaddaşına yazılan ən dəhşətli faciə olduğunu qeyd ediblər.

# “Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində təqdimat keçirilib

*Tədbiri giriş sözü ilə açan universitetin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru İradə Əliyeva 28 il əvvəl baş vermiş faciənin ermənilər tərəfindən xalqımıza qarşı aparılan düşmənçilik siyasətinin tərkib hissəsi olduğunu bildirib:* “Xocalıda azərbaycanlılara qarşı törətdilən qanlı soyqırım aktı ümumən bəşərə, insanlığa qarşı ən qatı cinayətlərdən biri kimi tarixə həkk olunub. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması ədalətin bərpasına xidmət etməklə yanaşı, dünyada bir daha bu kimi dəhşətlərin baş verməməsi üçün çağırış rolunu oynayır”.




“Xocalıya Ədalət!” kampaniyasının nümayəndəsi Cəbrayıl Fərzəliyev Xocalı soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsi istiqamətində həyata keçirilən fəaliyyət, soyqırım haqqında hazırlanan müxtəlif təbliğat və maarifləndirmə vasitələri barədə təqdimatla çıxış edib. Kampaniya çərçivəsində aparılan işlərin müsbət nəticələrini də qeyd edən C.Fərzəliyev Xocalı hadisələrinin rəsmi şəkildə soyqırımı kimi tanıyan, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən dövlətlərin sayının getdikcə artdığını bildirib.

**_“Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayıb_**

Tədbirdə Xocalı soyqırımı ilə bağlı qısametrajlı film nümayiş etdirilib.

Əlavə edək ki, “Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayıb. Azərbaycanın hüdudlarından kənarda Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində kampaniya bir neçə layihə və tədbirlər həyata keçirib.

# “Xocalı” abidəsi ziyarət olunub

Bu gün Xocalı faciəsindən 28 il ötür. Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə universitetin bir qrup tələbəsi Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış “Ana harayı” abidəsini ziyarət edib. Onlar abidənin önünə tər güllər düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.







# UNİVERSİTET XƏBƏRLƏRİ

## Universitetimizin qonaqları

**Pakistan İslam Respublikası**

*BDU-nun rektoru Elçin Babayev Pakistan İslam Respublikasından gələn nümayəndə heyətini qəbul edib.* Görüşdə Pakistan İslam Respublikasının Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəm, Kayde-Əzəm Universitetinin professoru, ictimai-siyasi təhlilçi Zəfər Navaz Jaspal, Mərkəzi Asiya ölkələri və Azərbaycan üzrə ekspert, təhlilçi-yazıçı Mahmud əl-Həssan Xan və digər rəsmi şəxslər iştirak edib.

BDU-nun rektoru Elçin Babayev Azərbaycan və Pakistan arasındakı mövcud ikitərəfli əlaqələrin, həmçinin yüksək səviyyəli qarşılıqlı görüşlərin hər iki ölkənin müxtəlif sahələrində inkişafa müsbət təsirindən, həmçinin təhsil istiqamətində görülən işlərin əhəmiyyətindən danışıb.

Xarici qonaqlara Universitetin fəaliyyəti, son illər görülən işlər, həyata keçirilən layihələr və proqramlar barəsində məlumat verilib. Kayde-Əzəm Universiteti ilə birgə tədbirlərin keçirilməsi, tədqiqatların aparılması, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi kimi məsələlər müzakirə olunub.

*Qazaxıstan Respublikası*

*Qazaxıstan Respublikası Parlamenti Məclisinin deputatı Məhərrəm Məhərrəmovun başçılıq etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində olub.* Görüşdə Qazaxıstan Respublikası Prezidenti yanında “Koğamdık kelisim” Respublika müəssisəsinin mətbuat xidmətinin rəhbəri Xanşayım Baydauletova, Qazaxıstan Xalq Assambleyasının Nur-Sultan şəhəri üzrə katibliyinin rəhbəri Ləzzət Kusainova, “Koğamdık kelisim” Respublika dövlət müəssisəsinin rəhbəri Nuralı Aydaşev, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkərimov və Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov iştirak ediblər. Rektor Elçin Babayev Bakı Dövlət Universiteti ilə Qazaxıstan ali təhsil müəssisələri arasındakı mövcud əlaqələrin əhəmiyyətindən danışıb. Universitetin bir neçə fakültəsində qazaxıstanlı tələbələrin təcrübə keçdiyini bildirən rektor tələbə və müəllim mübadiləsinin vacibliyini diqqətə çatdırıb.

Sonra nümayəndə heyəti BDU nəzdində fəaliyyət göstərən Abay Kunanbayev adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzinə də baş çəkiblər. Qonaqlara Mərkəzin fəaliyyəti, son illər görülən işlər, həyata keçirilən layihələr və proqramlar haqqında məlumat verilib.

# Xocalı - Ümumbəşəri Soyqırım

***Təkcə Azərbaycan xalqına qarşı deyil, ümumən bəşəriyyətə qarşı törədilmiş bu terror aktı öz ağlasığmaz cinayətləri ilə və amansız xarakteriylə səciyyəvidir. Təsadüfi deyildi ki, ümummilli lider Heydər Əliyev bu faciəyə real siyasi qiymət verərkən “Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir” deyirdi.*** Əslində bu soyqırım tarixən mövcud olmuş erməni millətçi-şovinizminin bəlkə də kulminasiya nöqtəsi idi. Ümumiyyətlə bu soyqırımın törədilməsi üçün Xocalı təsadüfi bir seçim deyildi. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək məqsədi idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür.




Xocalının kromlexləri, dolmenləri, siklopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır. Erməni terrorçuları heç kimə rəhm etmədən dinc əhaliyə amansız divan tutmuş, hətta körpə uşaqlara qarşı belə amansız bir davranış sərgiləmişdir. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil. Ən böyük qəddarlıq isə qurtulmaq amacı ilə pusquya salınan insanlara qarşı olmuşdur. Bunu demək nə dərəcədə çətin olsa da deməliyik ki, qucağında körpəsi olan bir ana körpəsinin ağlamaq səsinin qaçan dəstənin ələ keçməsinə səbəb olacağından qorxub onun ağzını sıxması və nəfəssiz uşağın ana qucağında tələf olması bu faciənin yüzlərlə qan donduran hadisələrindən biri idi.

Böyük soyqırımın dünya ictimaiyyətinə çatdırılması üçün həlledici işlər görüldü, bu işlər ciddi şəkildə soyqırımın bir sıra dövlətlər tərəfindən tanınmasına səbəb oldu. Bu günün özündə də bu faciəyə ümumən Qarabağ münaqişəsinə Ölkə Başçısı xarici siyasətində böyük yer ayırır və bütün bunlar öz nəticəsini verməkdədir. Təkcə “Xocalıya ədalət” kampaniyası çərçivəsində bu terror aktı bir sıra inkişaf etmiş ölkələrdə böyük kütlələrə təqdim olunmuşdur. Bu yolda hər bir azərbaycanlı səfərbər olmalı, hər bir gənc qolunun gücü ilə, həm də, qələminin,beyninin gücü ilə bu həqiqət uğrunda barışmaz mübarizənin bayraqdarı olmalıdır. Bununla belə görəcəyimiz işlər hələ bununla bitmir. Birinci növbədə unutqan olmamalıyıq. Sadəcə XX əsr tariximizə nəzər salsaq milli unutqanlığımızın acı fəsadlarını müşahidə edə bilərik. Əsrin əvvəlindəki etnik təmizləmə, 1918-ci ilin mart soyqırımı, 1948-1953 -cü illərdə Azərbaycanlıların öz doğma torpaqlarından deportasiyası, 1988-ci il kütləvi deportasiyası, 1990-cı il 20 yanvar faciəsi və bütün bunların məntiqi yekunu olan Xocalı -ana ahlarının, körpə çığırtılarının göylərə ucaldığı, Azərbaycanlı qanı ilə suvarılmış torpaq...

**Əli Babazadə,
Tarix fakültəsinin
III kurs tələbəsi**

# “Qarabağ: Əcdadlarımızın mirası” sənədli filmi nümayiş olunub

Universitetdə “Qarabağ: Əcdadlarımızın mirası” sənədli filminin nümayişi keçirilib. Nümayiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin keçirdiyi silsilə tədbirlər əsasında, ilk olaraq Bakı Dövlət Universitetində baş tutub.

“Qarabağ: Əcdadlarımızın mirası” Azərbaycanda Qarabağın bütün tarixi dövrlərini və müasir işğal dövrünü orijinal çəkiliş materialları, arxiv sənədləri və muzey materialları ilə əks etdirən modern formatda hazırlanan ilk sənədli filmdir.

# Milli mənəvi dəyərlər və media

**Bu gün kütləvi informasiya vasitələri gənclərimizin milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir. Xüsusilə, gənc, yeniyetmə qızlarımızın ağır, mürəkkəb zaman kəsiyində düzgün tərbiyə olunmasında KİV böyük qüvvəyə malikdir.**

Yaşadığımız XXI əsr kəskin ziddiyyətləri ilə zəngin olan qarışıq, «mədəni dünya»nı özündə təcəssüm etdirməkdədir. Zahirən bəzəkli görünən bu dünya, öz acımasız qanunları ilə maraqlar və iddialar üzərində qurulmaqla yanaşı mənəvi dəyərlərin deqradasiyasına da səhnə olmaqdadır. Mənəvi-mədəni irsə etinasız münasibət təəssüf doğuracaq haldır və bu etinasızlıq xalqı öz tarixi yaddaşını itirməyə sürükləyə bilər.

Nə yazıq ki, bu deqradasiyasının katalizatoru gündəlik həyatımızı bir anlıq olsun belə onsuz təsəvvür etmədiyimiz media - mətbuat, televiziya, radio və internetdir. İnsanın öz dəyərlərini itirərək, gözünü maddiyyata və ambisiyalarına çevirməsində, onun öz daxili aləmini çirkləndirməsində medianın rolu böyükdür.

Kütləvi informasiya vasitələrinin necə böyük bir gücə malik olması barədə söhbət açmaq yersiz olardı. KİV bu gün bütünlüklə ayrı bir dünyadır və bu dünya öz sosial-psixoloji təsiri mahiyyəti ilə əvəzedilməz və müqayisəyəgəlməz dərəcədə böyük təsir gücünə malikdir. Bu gün kütləvi informasiya vasitələri bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilib. Çünki onsuz həyatımızın hansı istiqamətdə axın edəcəyini düşünmək qeyri-mümkündür. Bu, günümüzün reallığıdır. Lakin gəlin bir anlıq təsəvvür edək: nəinki gündəlik iş rejimimizə, hətta şüurlarımıza və bilavasitə şəxsiyyət kimi inkişafımıza birbaşa təsir etmək gücünə malik KİV düzgünlük, vətənpərvərlik, demokratiya və insan hüquqlarına hörmət etmək əvəzinə, zorakılığı, milli diskriminasiyanı, cəmiyyətin bir çox eybəcərliklərini qabardır və bir növ bu eybəcərliklərin təbliğatçısına çevrilir. O zaman istər cəmiyyətin, istərsə də ayrı-ayrı fərdlərin müsbət yöndə inkişafından danışmağa dəyərmi?

Müasir jurnalistkanın dinamik inkişafı və informasiya məkanının qloballaşması dünyanın istənilən nöqtəsinə öz təsirini göstərib. Mətbuat, televiziya və radio, multimedia və internet şəbəkələri milyonlarla insanın evinə girməkdədir. İnformasiya axını ictimai proseslərin idarə edilməsində əhəmiyyətli rıçaqlardan birinə çevrilib. Və bütün bunlarla yanaşı qeyd edilməlidir ki, güclülər informasiyanın toplanması, saxlanması, işlənməsi, yayılması və istehsalı proseslərində də öz qayda və qanunlarını diqtə edirlər. Lord Biverbrukun bir zamanlar dediyi kimi, «Mən qəzeti təbliğat aparmaq üçün nəşr edirəm, başqa məqsədlər üçün yox» (Royal commission on the press: Memoranda of evidence 4. London, 1962. s. 78). Dünya informasiya bazarında cəmi 9 şirkətin söz sahibi olmasının özü bunu əyani olaraq sübut etməkdədir. Birbaşa diqtə və senzura müasir dünyamızda tarixdə qalmış bir nəsnədir, lakin indi iqtisadi gücə malik korporasiyalar (və şübhəsiz ki, onların arxasında duran güclər) beynəlxalq rəyi nəzarətdə saxlamaq məqsədi ilə ustalıqla media gücündən istifadə edirlər. Məşhur Rusiya jurnalist nəzəriyyəçisi S. Mixaylovun da yazdığı kimi, həmin korporasiyalarla əlbir şəkildə «dövlət orqanları da aktiv olaraq xəbərlərin manipulyasiyası prosesində iştirak edirlər, məsələn bunu biz, Amerika Birləşmiş Ştatlarının timsalında görə bilərik». Bu zaman isə artıq kütləvi informasiya vasitələri ilə yad mədəniyyətlərin ekspansiyası prosesi ilə qarşı-qarşıya gəlmək təhlükəsi ilə üz-üzə qalırıq.

Bu gün ölkə mediasındakı vəziyyəti nəzərdən keçirərkən heç də ürəkaçan mənzərə ilə qarşılaşmırıq. Kütləvi informasiya vasitələrində gedən materiallarda xalqımızın əxlaq normaları gözlənilməli, bayağı xarakter daşımamalıdır. Biz elə bir zamanda yaşayırıq ki, gənclərimizin mənəvi - əxlaqi zəmində yazılmış məqalələrə böyük ehtiyacı var. Bu gün kütləvi informasiya vasitələri gənclərimizin milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir. Xüsusilə, gənc, yeniyetmə qızlarımızın ağır, mürəkkəb zaman kəsiyində düzgün tərbiyə olunmasında KİV böyük qüvvəyə malikdir. Lakin təəssüf ki, elə mətbuat nümunələri var ki, ucuz sensasiya xatirinə, çox vaxt isə milli mentalitetimizə uyğun olmayan yazılarla çıxış edir, gəncliyin mənəviyyatına açıq-aşkar böyük zərbələr vurur. Bazar iqtisadiyyatı dövründə əvəzsiz məfkurə sahəsi olan medianın başlıca məqsədi gəncliyin mənəvi yetkinliyi uğrunda xidmət göstərmək olmalıdır. Təsirli, cəlbedici, məntiqi, reallığa söykənən ibrətli yazılarla mətbuat bu günün problemlərindən söz açmalı, cəmiyyəti maraqlandıran hadisələr barədə tərəfsiz, dəqiq və qərəzsiz informasiya ötürücüsünə çevrilməlidir. Çünki yaradıcılıq üçün ən zəngin mənbə həyatdır, yaşayıb yaradan insanların fəaliyyətidir.

Bu gün igid oğullarını itirmiş analar, tənha qocaların, həyat yoldaşları qürbətə qazanc dalınca getmiş cavan gəlinlərin, qaçqın şəhərciklərində əlləri qoynunda qalmış qadınların dərdsərindən yazmaq, işıqlandırmaq bir nömrəli məqsəd olmalıdır. Bu gün inkişaf edən Azərbaycanda avropalaşmanın üstünlükləri olsa da, bunun mənfi tərəfləri də var. TV-də efirə gedən xarici kinofilmlərin, musiqinin təsiri altında formalaşan gənc nəsil ənənəvi mədəni-mənəvi və bədii oriyentirlərdən surətlə uzaqlaşır. Milli şüura və mentalitetə yad olan və ekrandan təbliğ edilən bu amillər gənc nəsil arasında önəmli yer tutmağa başlayır. Bütün bunlar isə öz növbəsində gənc və daha yaşlı nəsil arasında hətta bəzən keçirməsi mümkün olmayan böyük sədd yaradır, onların biri-birini anlamasını çətinləşdirir.

Söhbətlərində, geyim-keçimlərində, xalqının milli-mənəvi dəyərlərinə, tarixinə, adət-ənənələrinə laqeyd qalan gənclərin taleyi, cəmiyyətdə «avropalaşmaq» adı ilə özünə yer tapmağa başlayan mənəvi deqradasiya mediada həyəcan təbili çala bilmir. Əvəzində isə, sensasiya doğuran, qeybət xarakterli bəsit xəbərlər, milli psixologiyamıza qətiyyən uyuşmayan, yüz ildə bir dəfə təsadüfən baş vermiş bayağı nəsnələr, incəsənət ulduzlarının şəxsi həyatında baş vermiş mənasız, cəmiyyət üçün heç bir əhəmiyyəti olmayan hadisələr, abırsız şəkillər, kollajlar mediada istənilən qədərdir. Bəzi mətbuat orqanları tarixi ənənələrimizdən uzaq düşür, öz kökümüzə balta vurur, satira əvəzinə söyüş, tənqid əvəzinə təhqir yazırlar.

Böyük və ciddi məsələlərdən biri də ölkədə sektant qrupların, missionerlərin, özünü əsl müsəlman kimi qələmə verən qeyri-ənənəvi təriqətlərin surətlə artmasıdır. Bütün bunlar gənclərə böyük təsir göstərir, onları milli-etnik kökdən ayırıb, özgə dünyagörüşünün, yad mənəviyyatın və dinin quluna çevirir.

Bu cür fəaliyyət təkcə jurnalistikanın praktikasına zidd deyil, milli-mənəvi dəyərlərimizə, əxlaq və etik normalara da ziddir.

Qloballaşma, dünya mədəniyyətinə inteqrasiya, dinlər və mədəniyyətlərarası dioloq prosesinə cəmiyyətimizin sosial-mədəni reaksiyası, mənəvi-əxlaqi dəyərlərimizin dirçəldilməsi və ən azından, KİV ilə təbliğinə qanunauyğun bir meyl doğurur. Və bu cür təbliğat da islamın zahiri görünən və qəbul edilən atributları ilə paralel olaraq, onun həqiqi mədəni- mənəvi normaları sistemi kimi mahiyyətinin dərk edilməsi, dinimizin əsrlərin və ölkələrin sərhədlərini hansı dəyərlərin əzəməti ilə aşa bilməyə qadir olması haqda aydın təsəvvürlər yaradılmasını aktual məsələyə çevirir.

Ümumbəşəri qlobal dəyərlərin və prinsiplərin reallaşdırılmasında «İslam faktorunun» Qərbdə formalaşmış yanlış stereotip kimi deyil, dioloq, əməkdaşlıq, kompromis kimi əməl müddəaları mənasında başa düşülməsi qlobal ünsiyyətin potensial mexanizmi kimi qiymətləndirilməsinin vaxtı gəlib çatmışdır. Qərb üçün təhlükə kimi qələmə verilən «İslam intibahının», islamın təsir gücünün, nədən ibarət olmasını aydınlaşdırmağa bu gün çox səy göstərirlər. Və təbii ki, bu məsələni də KİV- siz xüsusən də radio və TV-siz həyata keçirmək, həll etmək mümkün deyildir. («Kəlam» jurnalı, aprel 2004)

> Söhbətlərində, geyim-geçimlərində, xalqının milli-mənəvi dəyərlərinə, tarixinə, adət-ənənələrinə laqeyd qalan gənclərin taleyi, cəmiyyətdə «avropalaşmaq» adı ilə özünə yer tapmağa başlayan mənəvi deqradasiya mediada həyəcan təbili çala bilmir.

*__P.S.__ Sonralar ABŞ-da böyük media korporasiyasının əsasını qoymuş və XIX əsrin sonlarında XX əsrin əvvəllərində yaşamış Vilyam Rendolf Herstin Kuba adasındakı müxbirinə məşhur məktubu var. Herst həmin məktubda öz müxbirinə yazır: «Sən Kubada qalmaqda və məna orada baş verənlərlə bağlı məlumatları və şəkilləri göndərməkdə davam et. Müharibəni başlamaq isə mənim boynuma». Həqiqətən də Herstin nəzarəti altında olan qəzetlərdə aparılan iyrənc təbliğat tez bir zamanda Kuba üstündə ABŞ-la İspaniya arasında müharibənin başlamasına səbəb olur.*

**Vüqar Zifəroğlu,**
*Jurnalistika fakültəsinin dekanı,*
*filologiya elmləri doktoru*



# UNİVERSİTET XƏBƏRLƏRİ

## Litva Respublikasının Səfiri BDU-nu ziyarət edib

***Litva Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Eqidius Navikas Bakı Dövlət Universitetində olub. Görüşdə Litva Respublikasının sabiq Təhsil naziri, hazırda Litva Parlamentinin Elm və Təhsil Komissiyasının üzvü Gintaras Steponacikus da iştirak edib.***



Qonaqları salamlayan rektor Elçin Babayev 100 illiyi qeyd olunan Bakı Dövlət Universitetinin tarixi, beynəlxalq əlaqələri və yeni hədəfləri haqqında məlumat verib. Azərbaycan və Litva Respublikası arasında 25 ildir mövcud olan diplomatik münasibətlərdən bəhs edərək Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib.

Səfir Eqidius Navikas görüşün təşkili üçün rektora minnətdarlığını ifadə edib, BDU ilə Litvanın ali təhsil müəssisələri arasındakı əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən danışıb.

Litva Parlamentinin Elm və Təhsil Komissiyasının üzvü Gintaras Steponacikus Vilnus Universiteti, Kaunas Texnologiya Universiteti və digər ali təhsil ocaqları ilə ikili diplom, həmçinin təqaüd proqramları barədə məlumat verib. O, hazırda fəaliyyət göstərən Təkmilləşmə Mərkəzlərinin təhsilin inkişafına verdiyi töhfələrdən, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Fransa, Litva və Latviyanın təmsil olunduğu konsorsium tərəfindən həyata keçirilən icrasına 2018-ci ilin aprelində başlanılmış “Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək” Tvinninq layihəsinin önəminə toxunub.

Sonda qonaqlar Litva Universitetləri ilə tanışlıq, eləcə də əməkdaşlığın qurulması məqsədilə Bakı Dövlət Universitetinin nümayəndə heyətini öz ölkələrinə dəvət edib.

Görüş iki ölkənin ali təhsil müəssisələri arasında elm-təhsil müstəvisində görüləcək işlərin müzakirəsi ilə başa çatıb.

## Çexiya Respublikasının Səfiri BDU-da olub

***14 fevral 2020-ci il tarixində Çexiya Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Milan Ekert və səfir müavini Daniel Putik Bakı Dövlət Universitetində olub.***



Qonaqları salamlayan Universitetin rektoru Elçin Babayev Azərbaycan və Çexiya Respublikaları arasındakı mövcud ikitərəfli əlaqələrdən bəhs edib, Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyətinin təhsil sahəsində inkişafa verdiyi töhfələrdən bəhs edib.

Rektor BDU ilə Çexiya ali məktəbləri arasında ikitərəfli əlaqələrin önəmini qonaqların diqqətinə çatdırıb, Çexiyanın Karlov Universiteti ilə Əməkdaşlıq Protokolu çərçivəsində görülən işlər barəsində məlumat verib.

Görüşdə Karlov Universitetinin Təbiət Elmləri fakültəsi və Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin birgə layihələrinin hər iki ali təhsil müəssisəsi üçün əhəmiyyətindən bəhs olunub, Beynəlxalq Vişeqrad Fondu (IVF) tərəfindən Azərbaycan Respublikasının alim və tədqiqatçılarına ayrılan təqaüdlər barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanla Çexiya arasında ikitərəfli əlaqələrin müntəzəm inkişaf etdiyini bildirən Səfir elm, təhsil və mədəni əlaqələrin inkişafının vacibliyini vurğulayıb. Gələcəkdə BDU nəzdində çex dili və ədəbiyyatı mərkəzinin yaradılması, eləcə də çex dili və ədəbiyyatı üzrə magistr proqramının tədris planına daxil edilməsinə dair müzakirələr aparılıb.

# Klassikanı və müasirliyi birləşdirən tədqiqatçı: professor Firidun Hüseynov

Firidun Hüseynovun yetişdirdiyi elm adamları bu gün Azərbaycanı beynəlxalq ədəbi aləmdə təmsil edən alimlər kimi tanınırlar. Firidun müəllim ömrünü çox sevdiyi Universitetə, bu Universitetin Filologiya fakültəsinə, bu fakültənin Azərbaycan ədəbiyyatı kafedrasına bağlamışdı. Bu gün həmin fakültənin professor- müəllim heyəti hər an onu ustad kimi, xoşməramlı insan kimi, əziz dost kimi minnətdarlıqla xatırlayır.

***İnsan taleyinin qəribə anları olur. Bəzən bir anın, bir dəqiqənin hansısa hökmü bütöv bir ömrün, bütöv bir həyat yolunun dönüş nöqtəsi olur və bu nöqtə səni zamanın sınaqlarından çıxarıb, sonunda təmiz dünyaya qovuşdurur. Sovet dövrünün gözdən, könüldən uzaq Kamçatkasında əsgərliyi başa vurub Bakı Dövlət Universitetinə qəbul imtahanına gəlmiş cavan və kimsəsiz bir oğlan uşağının taleyini yazan bir anın tarixi mövcudluğu kimi:*** 1964-cü ilin isti avqust günlərində qəflətən gəlib düşdüyüm qarmaqarışıq Bakı şəhəri ilk anda mənə çox ögey bir məkan təsiri bağışladı. Amma neyləmək olardı, o uzaq Kamçatkadan on dörd min kilometr yol gəlmişdim və Ağdama, doğma kəndimiz Novruzluya dəyməyə bir gün də vaxtım qalmamışdı. Özümü qəbul imtahanlarına çatdırmışdım və səhəri gün bu Universitetin Filologiya fakültəsinin Jurnalistika şöbəsində Dil və ədəbiyyat fənnindən yazılı imtahan verməliydim. Bu da bir tale qisməti idi və mən özümü o imtahana çatdırmışdım.

İmtahan qəbul edən iki cavan müəllim auditoriyada var-gəl edir, deyəsən ancaq o zaman "konspekt" deyilən bir kağızdan gizli köçürmələrə nəzarət edirdilər. Bu yazılı imtahandan tanımadığım bir oğlan və mən eyni vaxtda inşanı bitirib auditoriyadan çıxmaq üçün həmin o cavan müəllimlərdən icazə istədik. Onlar bizim yazını belə tez bitirməyimizə bir az təəccübləndilər və başları ilə çıxmaq icazəsi verdilər…

İki gündən sonra o zaman «Nizami-49» deyilən bir ünvanda yazıların nəticələrini bilməyə yığıldıq və 192 nəfər abituriyentin içərisində yalnız mənim həmin o iki müəllimin imzası ilə «əla» qiymət aldığım məlum oldu.

Beş gün keçdi və mən şifahi imtahanda da həmin iki müəllimin birlikdə imtahan qəbul etdiklərini gördüm. Və o iki müəllim şifahidən də mənə "əla" yazdı.

Mən o iki müəllimin "əla"sı hesabına universitet tələbəsi oldum və çox keçmədi ki, mən o ögey şəhərə öyrəşdim, dostlarımı, tanışlarımı tapdım və o iki müəllimi də hər gün Universitetin o zamanki Kommunist-6 da yerləşən (indiki Azərbaycan İqtisad Universiteti) binasının dəhlizində hər gün görəsi oldum: Filologiya elmləri doktoru Firidun Hüseynov və Filologiya elmləri doktoru Ağamusa Axundov... Sonralar hiss elədim ki, yüksək səviyyəli müəllimləri ilə qürur duyduğumuz Filologiya fakültəsində o iki müəllimin ayrıca yeri varmış, lap cavan vaxtlarından elmlər doktoru, professor olmuşlar. Firidun müəllim ədəbiyyatçı, Ağamusa müəllim dilçi. Hər ikisinin SSRİ miqyasında elmi şöhrəti, adı-sanı var. Hər ikisi insanlıq keyfiyyəti ilə alimlik adını qoşa yazıb talelərinə. Sonralar mən Ağamusa müəllim haqqında cümlələri sevgi dolu yazılar yazmışam. Bu pritçanı isə ikinci o gülərüz müəllimə, gülərüz insana, hələ tanımadığı cavan bir oğlana göstərdiyi qayğısını heç vaxt unutmadığım Firidun Hüseynova həsr edirəm. Çünki o, mənim həm də əlimdən tutub ədəbiyyat aləminə ayaq açmağımda ilk ustadım olub.

Bu dünyada ən dəqiq söz, ən dəqiq proqnoz atalara məxsusdur. «Alim olmaq asandır, insan olmaq çətin» kimi müdrik atalar sözünün dəqiqliyinin min dəfə şahidi olmuşuq. Alimliyi və insanlığı sinxron şəkildə cəmiyyətə məlum olan Universitet müəllimləri içərisində Firidun Hüseynov həmişə ilk sırada dayanmışdı. O özünün saysız- hesabsız elmi əsərlərinin hər birini ərsəyə gətirdikcə daha təvazökar, daha sadə, daha iddiasız görünürdü. Onu Mir Cəlal müəllim kimi böyük yazıçı, alim, pedoqoq bir şəxsiyyət özünə yaxın dost bilirdi. O qədər yaxın ki, «XX əsr Azərbaycan ədəbiyyatı tarixi» kimi fundamental bir dərsliyi birgə yazmışdılar. İki böyük alimin -müəllimin qələmindən çıxan həmin dərslik sovet ideoloji kanonlarının at oynatdığı bir dönəmdə meydana çıxmasına baxmayaraq, bu gün də ədəbiyyata meyilli hər kəsin stolüstü kitabıdır.

Mən Universitetdə jurnalistika təhsilini Filologiya fakültəsində almışam. Universitetimizin Filologiya fakültəsi həmişə bütöv bir institut səviyyəsində olmuşdur. Burada mənim yaxından tanıdığım, yeri gələndə əlimdən tutmuş professor Əlövsət Abdullayev- türk sözünün qadağan edildiyi vaxtlarda «Türkologiya» kafedrasını yaratmış bir şəxsiyyət var idi. Burada həmin kafedranın müdiri, professsor Fərhad Zeynalov, məşhur dilçi alim Muxtar Hüseynzadə, dünyaca məşhur dilçi Ağamusa Axundov, professor



Yusif Seyidov, akademik Tofiq Hacıyev kimi şəxsiyyətlər var idi. Bu alimlərin hamısı Firidun müəllimi özlərinə ən yaxın, doğma adam bilirdilər. Qəribədir, ilk dəfə qəbul imtahanında bir yerdə bizdən imtahan götürən iki müəllim-Firidun Hüseynov və Ağamusa Axundov ömürlərinin axırınadək ən yaxın dost oldular. Ağamusa Axundov dilçi, Firidun Hüseynov ədəbiyyatçı. Bu iki alimi bir-birinə bağlayan eyni vaxtda dilimizə, ədəbiyyatımıza sinxron sevgiləri idi. Onlar bir-birinə iki dost kimi çox yaraşırdılar. Onları həm də bir-birinə mənəvi təmizlikləri bağlayırdı. Bəlkə elə bu təmizliyə görəydi ki, onları mütəmadi olaraq bir yerdə qəbul imtahanlarına salırdılar. Onlar heç vaxt kiminsə abituriyent haqqını tapdamağa qoymazdılar. Bu təmizlik, bu ədalət onların sifətindən oxunurdu və Tanrı, deyəsən, onları daha çox bu təmizliyə görə dost eləmişdi.

F.Hüseynov Azərbaycan ədəbiyyatının ən mükəmməl nümayəndələrinin yaradıcılığını tədqiq edirdi. 1964-cü ildə -31 yaşında (o zaman üçün çox təəccüblü idi) namizədlik dissertasiyası müdafiə etmişdi. «Əli Nəzminin həyatı və yaradıcılığı» mövzusunda bu dissertasiya öz mükəmməlliyi ilə böyük ədəbiyyat alimlərinin yüksək qiymətini qazanmışdı. 1978-ci ildə «Cəlil Məmmədquluzadə nəsrində əsas problemlər» mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Bu, artıq mənim də gözümün qabağında baş verirdi və o dissertasiya şurasında Mir Cəlal müəllimin həmin əsərə verdiyi qiymət bizdə qürur hissi doğurmuşdu.

Bu sahədə onun vətənə , millətə xidmət missiyasını təkcə bədii əsərlərində deyil, həm də tədqiqatlarında yerinə yetirən Mir Cəlal kimi müəllimi var idi. Mən onun hər sözündə, hər söhbətində Mir Cəlal obrazına müqəddəs münasibətinin canlı şahidi olmuşam.

Azərbaycanın yeni dövr milli intibahının görkəmli nümayəndəsi, yaratdığı ədəbi məktəblə bütün Şərqdə nümunə kimi tanınan Cəlil Məmmədquluzadə yaradıcılığı F.Hüseynovun tədqiqatlarında mükəmməl təhlilini tapmışdır. Firidun müəllim özünün doktorluq dissertasiyasını və bir sıra fundamental monoqrafiyalarını bu millət fədaisinin yaradıcılığına həsr etmişdir. Onun "Adi əhvalatlarda böyük həqiqətlər", "Molla Nəsrəddin" və "mollanəsrəddinçilər" kimi monoqrafiyaları Mirzə Cəlili, onun yaratdığı realist ədəbi məktəbi və bu məktəbin çoxsaylı nümayəndələrini öyrənmək üçün özü bir məktəbdir. Ədəbiyyat tariximizin XIX əsr dövrünün elə nümayəndələri var ki, onlar yanlız bu tədqiqatçının araşdırmalarından sonra cəmiyyətə təqdim olunmuşlar.

F.Hüseynovun bu qədər zəngin yaradıcılıq potensialı həm klassik , həm də müasir dünya ədəbi proseslərinə yaxından bələdliyi ilə əlaqədar olmuşdur. Onun Azərbaycan ədəbiyyatına dair əksər əsərləri dünya ədəbi prosesi ilə müqayisədə təqdim olunur. Xüsusilə XIX əsr rus ədəbiyyatına yaxından bələd olması, Lev Tolstoy, F.Dostoyevski, İ.Turgenev, M.Lermontov... kimi sənətkarların yaradıcılığı onun əsərlərində çox yer tutmuşdur.

F.Hüseynovun yetişdirdiyi elm adamları bu gün Azərbaycanı beynəlxalq ədəbi aləmdə təmsil edən alimlər kimi tanınırlar. Firidun müəllim ömrünü çox sevdiyi Universitetə, bu Universitetin Filologiya fakültəsinə, bu fakültənin Azərbaycan ədəbiyyatı kafedrasına bağlamışdı. Bu gün həmin fakültənin professor- müəllim heyəti hər an onu ustad kimi, xoşməramlı insan kimi, əziz dost kimi minnətdarlıqla xatırlayır.

Bəli, Firidun Hüseynov az yaşadı, amma millət, xalq üçün, dünənki tələbələri üçün, sabahın tələbələri üçün, filologiya elmimiz üçün qoyub getdiyi fundamental əsərləri, doğmalarının qoruduğu bir ailə onu əbədi yaşadacaq.

***Cahangir Məmmədli,***
*Yeni Media və kommunikasiya nəzəriyyələri kafedrasının müdiri, professor*

# Jurnalistika fakültəsində dəyirmi masa keçirilib

*Jurnalistika fakültəsində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan dekan müavini Samir Mirzəyev faciənin XX əsrin ən dəhşətli hadisələrindən biri olduğundan, Erməni silahlı dəstələrinin Xocalıya hücum edərək günahsız dinc əhaliyə divan tutmasından bəhs edib.*

Tədbirdə çıxış edən politoloq, "Trend" informasiya agentliyi baş direktorunun müavini Arzu Nağıyev beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən, bəşər tarixinə qanlı faciə kimi daxil olan Xocalı soyqırımının Azərbaycan xalqının qan yaddaşında silinməz izlər qoyduğunu bildirib. Politoloq XX əsrin sonunda baş vermiş bu faciənin təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri olduğunu deyib. A.Nağıyev tələbə-jurnalistləri həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında sosial şəbəkələrin təqdim etdiyi imkanlardan geniş istifadə etməyə çağırıb.

Dünya Axıska Türkləri Birliyinin Azərbaycan nümayəndəliyinin rəhbəri Məmməd Şamilov isə çıxışında bu tarixi hər bir vətəndaşın xüsusilə gənclərin bilməsinin vacibliyini vurğulayıb: "Bu hadisələr Azərbaycan Respublikasının ərazi bütövlüyü, xalqın müstəqillik yolunda apardığı mübarizənin əsası kimi, xalqın qəhrəmanlığının, cəsarətinin nümayişi kimi xatırlanmalıdır".

Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, professorlar Cahangir Məmmədli, Nəsir Əhmədli Xocalı soyqırımının dünyada tanınması istiqamətində imzalanmış mühüm dövlət sənədlərini xatırladıblar və bu işdə gənclərin üzərinə düşən vacib məqamları diqqətə çatdırıblar.

Sonda fikir mübadiləsi aparılıb, tələbələrin sualları cavablandırılıb.

# Tələbələrə "ActInSpace" yarışması haqqında məlumat verilib

*Bakı Dövlət Universitetində Təbiət elmləri və SABAH qruplarının tələbələri üçün Beynəlxalq İnnovasiyalar Yarışması hesab olunan "ActInSpace" haqqında təqdimat keçirilib.*

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin (UFAZ) nümayəndələri Vüsalə Hüseynova və Leyla Mirzəyeva yarışma haqqında tələbələrə ətraflı məlumat veriblər. Qeyd olunub ki, UFAZ-da aprelin 24-ü və 25-də hakaton keçiriləcək. "ActInSpace" müsabiqəsinin startap yaratmaq, verilmiş patentlərdən, texnologiyalardan və peyk məlumatlarından istifadə etməklə, iş perspektivləri üzərində işləmək üçün unikal bir fürsət olduğunu vurğulayan nümayəndələr tələbələrə yarışmanın qaydalarını izah ediblər.

Qeyd edək ki, ActInSpace - Fransız Kosmik Agentliyinin (CNES) təşəbbüsü ilə həyata keçirilən və 5 qitədə 100-dək şəhəri birləşdirən beynəlxalq innovasiya müsabiqəsi dünya miqyasında sahibkarları, tələbələri və yaradıcı insanları bir araya gətirən layihədir. Kosmik sektorun dinamik inkişaf imicini möhkəmləndirmək və kosmik texnologiyaların gündəlik həyatımızın bütün sahələrində necə tətbiq edildiyini göstərmək məqsədi daşıyır.

"ActInSpace" yarışmasının qalibləri hədiyyələrlə mükafatlandırılacaq, qalib komanda "Zero-G Airbus A310" parabolik uçuş etmək fürsəti əldə edəcək.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Gələcəyin fizikləri üçün qiymətli dərs vəsaiti

***Dünyanın bir çox universitetləri sırasında Bakı Dövlət Universitetinin məlum yeri var. Bu universitet ölkəmiz və bir sıra hallarda Azərbaycanla yaradıcılıq əlaqəsi olan bir çox xarici ölkələr üçün də kadr hazırlığı işi görməkdədir. Belə mühüm vəzifənin öhdəsindən gəlmək üçün universitetimizin beynəlxalq miqyaslı alimləri elmin və təhsilin vahid şəkildə aparılması sahəsində faydalı fəaliyyət göstərir.*** Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev təhsil müəssisəsində tədris prosesinin daha səmərəli olması üçün dərslik, dərs vəsaitləri, monoqrafiya tipli kitabların hazırlanması və nəşrinə xüsusi diqqət ayırır. BDU-nun Tədris-Metodiki Şurada fəaliyyət göstərən Qrif Komissiyası dərslik, dərs vəsaiti, monoqrafiyaları əks etdirən əsərlərə qrif təqdim edilməsi üçün intensiv işləyir. Tədris-Metodiki Şurasının sədri akademik Vasif Babazadənin rəhbərliyi və dosent Vaqif Qasımovun sədrliyi ilə Qrif Komissiyasının rektorun əmrinə təqdim etdiyi əsərlər təkcə BDU-da deyil, respublikamızın digər ali məktəblərində də istifadə edilir.

Belə əsərlərdən biri Bakı Dövlət Universiteti Yarımkeçiricilər kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru Vaqif Salmanovun "Lazer fizikası" adlı dörd hissəli dərs vəsaitidir. Azərbaycan Milli Aviasiya Akademiyasının professoru Kərim Allahverdiyev bu əsərə yüksək qiymət vermişdir. Professor Kərim Allahverdiyev öz rəyində yazır: "Prof. V.M.Salmanovun həmkarları ilə birlikdə azərbaycan, rus və ingilis dillərində hazırladığı dərs vəsaitləri, "Lazerlər fizikası", "Optiçeskie kvantovıe qeneratorı», "Optical Quantum Generatos" fizikanın aktual problemlərindən biri olan Lazer fizikasına həsr olunub. Təsadüfi deyil ki, XX əsrin elm və texnika sahəsində əldə olunan üç mühüm kəşflərindən biri - atom fizikası və informatika ilə yanaşı, məhz lazerlərdir. Bəzən lazerləri XXI əsrin "Lokomotivi" də adlandırırlar."

Bu sahədə özünün də ciddi yaradıcılığı olan professor Kərim Allahverdiyev əsərin kontent-analizini verir: "Dərs vəsaitləri universitetdə bakalavr və magistr pilləsində tədris olunan fənlərin proqramlarına uyğun tərtib edilmişdir. Birinci hissə lazerlərin fiziki əsaslarına və işləmə prinsipinə həsr olunmuşdur. Bu bölmədə lazer texnikasına aid olan əsas müddəalar, məcburi şüalanma, mənfi udulma, invers məskunlaşma, optik körükləmə, aktiv mühit, optik rezonator və s. məsələlər öz əksini tapmışdır. İkinci bölmədə müasir lazerlərin növləri haqqında məlumat verilir. Bərk cisim lazerləri, qaz lazerlər, yarımkeçirici, maye, teraherst və digər lazerlərin xüsusiyyətləri, fiziki parametrləri göstərilir. Üçüncü hissə lazerlərin tətbiq sahələrinə həsr olunmuşdur. Fizikanın müasir problemləri olan Kvant elektronikası, Qeyri-xətti optika, istilik nüvə sintezi, Boze-Eynşteyn kondensasiya hadisəsi, nanotexnologiya, fizikanın fundamental parametrlərinin ölçülməsində və bir sıra digər problemlərin həllində lazerlərin oynadığı mühüm rol hərtərəfli və aydın şəkildə göstərilmişdir. Dördüncü hissədə lazerlərin parametrlərinin təcrübi təyini və lazer fizikasında istifadə olunan müasir tədqiqat üsulları şərh olunur: He-Ne qaz lazerinin polarizasiyasının müəyyən edilməsi, Nd:YAG lazerinin şüalanma spektrinin ölçülməsi, ikişüalı lazer üsulu və s."

Doğrusu, Vaqif müəllimin öz həmkarları ilə birlikdə hazırladığı bu fundamental əsərin məni özünə cəlb etməsi bir neçə cəhətdən səciyyəlenir: birincisi, Vaqif Salmanovun təkcə Azərbaycan elmi mühitində deyil, həm də xaricdə məhsuldar bir alim kimi tanınması, ikincisi, lirikadan fizikaya keçid mərhələsini yaşayan milli maraqlarımızda bu predmetin vacibliyi, üçüncüsü, dərs vəsaitləri kifayət qədər sadə dildə yazılıb və böyük maraq kəsb edir. Bu dərs vəsaitlərindən ali məktəb tələbələri, magistrantlar və gənc alimlər istifadə edə bilərlər. Ümid edirik ki, professor Vaqif Salmanov və həmkarları tərəfindən hazırlanan dərs vəsaiti oxucular tərəfindən də böyük maraqla qarşılanacaq.

***Könül Q.Niftəliyeva,***
***Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti***

# TORONTO UNİVERSİTETİ

## Toronto Universiteti nəinki Şimali Amerikanın, həmçinin dünyanın nüfuzlu təhsil müəssisələrindən biridir

**Dünyanın məşhur ali təhsil ocaqları**



***Toronto Kanadanın ən böyük şəhərlərindən və dünyanın mədəniyyət mərkəzlərindən biridir. Bu ölkə elmi-tədqiqatların, qabaqcıl texnologiyaların tətbiqi və sənayenin inkişafı sahəsində böyük uğurlar qazanıb. Bütün bu uğurlar Kanada təhsil sisteminə də təsirsiz ötüşməyib. Kanadanın təhsil sistemi dünyada mövcud olan ən mükəmməl təhsil sistemlərindən biri hesab edilir. Digər ölkələrlə müqayisədə Kanada təhsilin inkişafına daha çox maliyyə vəsaiti ayırır.***

Kanada universitetlərinin diplomları bütün dünyada tanınır. Burada universitetə qəbul olmaq üçün xüsusi sınaq imtahanı yoxdur. Hər universitet özü qəbul qaydalarını verir və o qaydalara uyğun insanlar birbaşa universitetə müraciət edirlər. Universitetə qəbul olmaq üçün ümumilikdə ilkin şərt orta məktəbi bitirməkdir. Bu ölkədə iki dövlət dili olduğundan universitetlərdə həm ingiliscə, həm də fransızca dərslər keçirilir. Ümumilikdə Kanadanın ali təhsil sistemi ABŞ ali təhsil sisteminə uyğundur.

Kanadanın ali təhsil ocaqları sırasında Toronto Universiteti mühüm yer tutur. Toronto şəhərində səfərdə olarkən, ali təhsillə bilavasitə əlaqəli şəxs kimi mənə bu şəhərin universiteti ilə tanış olmaq, tələbə şəhərciyini ziyarət etmək nəsib olmuşdu. Toronto Universiteti nəinki Şimali Amerikanın, həmçinin dünyanın nüfuzlu təhsil müəssisələrindən biridir. Kanadadın digər ali məktəblərdə olduğu kimi, Toronto Universiteti yüksək səviyyəli, hərtərəfli, yüksək ixtisaslı elmi kadrlar yetişdirir. Universitet şəhərin mərkəzindən 15 kilometr məsafədə yerləşir. Mübaliğəsiz deyə bilərəm ki, bura şəhərin ən yaxşı yerlərindən biridir. Tədris korpuslarının qədim arxitekturası modern üslubda işlənib hazırlanmış yataqxanaların müasir fasadları ilə ahəng yaradır. Tələbə şəhərciyində gəzintiyə çıxmaq, böyük yaşıl çəmənlikdə uzanmaq da olar.

***Toronto Universiteti Kanadanın elmi həyatında mühüm rol oynayır. Bu təhsil ocağında ilk elektron kardiostimulyator, süni qırtlaq, kimya lazeri hazırlanıb, mədəaltı vəzinin transplantasiyası əməliyyatı, bir çox digər mürəkkəb xəstəliklərin müalicəsi həyata keçirilib. 5000 aparıcı tədqiqatçı universitetdə hər il 1 milyard dollar dəyərində tibbi tədqiqatlar aparır.*** Tibb elmi tarixində önəmli hadisələrdən olan insulinin kəşfi 1921-ci ildə bu ali məktəbdə yerinə yetirilib. 1963-cü ildə beyin sümüyünün köçürülməsi əməliyyatının əsasını qoyan gövdə hüceyrələri aşkarlanıb. 1972-ci ildə tədqiqatlar nəticəsində atmosferdə qara dəliklərin olması sübuta yetirilib. Universitetin astronomları Uran planetinin peykləri olan Kaliban və Sikoraksanı, Andromeda I, II, III qalaktikalarını aşkar ediblər. Dünyada ilk operativ kompüterlərdən biri olan UTEC və ilk kommersiya kompüteri məhz Toronto Universitetində hazırlanıb. Ali məktəbdə elmi-tədqiqat sahələri günbəgün genişləndirilir və bu istiqamətdə dünya liderliyini qazanmaq üçün səylər artırılır.

***Toronto Universiteti 1827-ci ildə ingilis kilsəsnin himayəsi ilə yaradılmış, lakin az müddətdən sonra dünyəvi təhsil ocağına çevrilmişdir. Burada altmış üç min tələbə oxuyur, universitet ölkənin əsl intellektual mərkəzidir.*** Təhsil ocağının mərkəzi tələbə şəhərciyi olan Sent-Corc olduqca təsiredicidir. Şəhərciyin ortasında yerə enmiş yadplanetli hava gəmisini xatırladan nəhəng kitabxana yerləşir. Toronto Universitetinin kitabxana sistemi böyüklüyünə görə Harvard, Yel, Berkli universitetlərinin kitabxanalarından sonra Şimali Amerikada dördüncü yerdə durur. Kitabxana sisteminə 19 milyon cild kitab, 5,4 milyon mikrofilm, 70000 dövri nəşr, 1 milyon xəritə və s. daxildir. Universitetin ən böyük kitabxanası Robartsdır. Burada sosial və humanitar elmlərə aid beş milyondan çox kitab var. Tomas Fişer kitabxanasında nadir kitablar və əlyazmalar, qədim Misir papirusları, inkunabulalar (kitab çapı icadının ilk dövründə yığma hərflərlə çap olunmuş ilk kitab), librettolar qorunur. Toronto Universitetinin kitabxana sistemi 2005-ci ildən İnternet şəbəkəsinə qoşulub.

Toronto Universitetində 70000 mindən çox tələbə təhsil alır. Onların 50336 nəfərini bakalavr, qalanlarını isə magistr və doktorantlar təşkil edir. Burada Kanadanın 10 bölgəsindən, ABŞ-ın 48 ştatından və dünyanın 160 ölkəsindən olan tələbələr oxuyur. Universitetin məzunlarının ümumi sayı 450000 nəfərə yaxındır.

***Kanadanın digər ali məktəblərində olduğu kimi, Toronto Universitetində təhsil sistemi də üçmərhələlidir.*** 3 illik ilk ali təhsil proqramında bakalavr dərəcəsi verilir. 1 və ya 2 illik magistr proqramından sonra doktoranturaya qəbul olanlar isə fəlsəfə doktoru dərəcəsi (PhD) almaq üçün daha 4 il elmlə məşğul olmalıdırlar. Bundan əlavə, universitetlər ixtisaslaşmış diplom və sertifikatların verilməsi ilə bağlı bir sıra proqramlar da təklif edirlər. Kanada ali məktəbləri tədris proqramlarına görə üç qrupa bölünür. Bakalavr təhsili verən universitetlər birinci, bakalavr və magistr proqramları tədris edilən universitetlər ikinci qrupa daxildir. Üçüncü qrupa isə doktor proqramları və tibb fakültələri olan ən nüfuzlu universitetlər aid edilir.

Toronto Universiteti üç kampusdan ibarətdir: Müqəddəs Georq , Missisauqa, Skarboro. Müqəddəs Georq kampusu Toronto şəhərinin mərkəzində yerləşir və tarixi memarlıq abidələrinə, əsrarəngiz parklara, yaşıllıqlara malikdir. Kampusda intibah, qotik, klassik və s. üslublarda tikilmiş memarlıq abidələri buraya çoxlu sayda turist cəlb edir. Müqəddəs Georq kampusunda Tətbiqi Elmlər və Texnika, Musiqi, Fiziki Tərbiyə və Sağlamlıq kollecləri yerləşir. Missisauqa kampusu Toronto şəhərinin qərbindədir. Kampusda universitetin nəşriyyatı, radiostansiyası, Tələbə Təşkilatının binası, 60-dan çox klub vardır. Bu şəhərciyi universitetin ən qonaqpərvər, dostluq münasibətlərinin möhkəm olduğu kampus adlandırırlar. Kampusda, həmçinin, Heyzel McCallion akademik tədris mərkəzi, kitabxana, istirahət guşələri, idman kompleksləri və s. yerləşir. Əcnəbi tələbələr bu kampusda daha çox məskunlaşıb. Skarboro kampusu Toronto şəhərinin şərqində Highland Krik vadisinin yanındadır. Bu kampusda daha çox modern binalara rast gəlinir. Skarboroda, əsasən, qlobal iqtisadi tendensiyalar, bazar iqtisadiyyatının tələblərinə cavab verə biləcək innovativ proqramlar həyata keçirilir.

Universitetdə 1000-ə yaxın tələbə təşkilatı, klubları və s. fəaliyyət göstərir. Burada tələbələrdən ibarət universitet teatrı, musiqi ansamblı, caz orkestri, xor kapellası, ümumilikdə "Varsity Blues" adlanan 44 idman komandası, həftədə iki dəfə dərc olunan "Varsity" tələbə qəzeti, "Hart House Review" ədəbi jurnalı, CIUT FM radiostansiyası mövcuddur. Hər kollecin, məktəb və fakültənin ayrıca olaraq qəzet, jurnal və digər nəşrləri var.

Toronto Universiteti tələbələrə edilən maliyyə yardımı və təqaüdlərə görə Şimali Amerikada əsas yerlərdən birini tutur. Universitetdə əlaçı, xüsusi istedada malik tələbələrə verilən təqaüdün məbləği orta hesabla 5035 dollar təşkil edir. Maliyyə durumu çətin olan tələbələrə əlavə 400-1000 dollar dəyərində qrant verilir. Təqaüd almaq istəyən tələbə bununla bağlı universitetə yazılı müraciət etməlidir.

***Toronto şəhərində yaşamaq tələbələrə baha başa gəlir. Burada qiymətlər çox bahadır. Nəqliyyat, yaşamaq haqqı tələbənin şəxsi büdcəsi hesabına ödənilir. Universitetdə təhsil alan əcnəbi tələbələr Ontario hökuməti tərəfindən tibbi sığortadan (UHIP) keçir. Universitetin tibbi sığortası 567 Kanada dollarıdır.***

*Toronto Universitetinin hər üç kampusunda bir neçə yataqxana mövcuddur.* Bu yataqxanalardan ən məşhurları İnnis, Çestnut, Ali, Loretto, Yeni, Uilson, Triniti, Sant-Hilda, Uitni, Morrison, qızlar üçün Ennsli, doktorantlar üçün Messi və digərləridir. Yataqxanalarda məskunlaşmaq istəyən tələbələr ərizə ilə ali təhsil müəssisəsinə müraciət etməlidirlər. Tələbələrə binalarda hər bir şəraitlə təmin edilmiş otaq və mənzillər (1, 2 və daha çox otaqlı), xüsusi evlər təklif olunur. Yataqxanalarda 8 ay (1 tədris ili) qalmaq otaqlardakı şəraitdən asılı olaraq tələbələrə 7920-13474 Kanada dollarına başa gəlir. Evlərin aylıq qiyməti isə onların şəraitindən və yerləşdiyi ərazidən asılı olaraq 610-1000 dollardır.

Toronto Universitetində onlarla azərbaycanlı tələbə təhsil alır. Burada 2009-cu ildən "Azərbaycanlı Tələbə Təşkilatı" fəaliyyət göstərir. Kanadanın ali məktəblərində təhsil almaq çoxlarının arzusudur. Bunun əsas səbəbi odur ki, ölkədə təhsilin keyfiyyəti, sosial müdafiənin səviyyəsi çox yüksəkdir. Məhz bu göstəricilərə görə Kanada demokratik və iqtisadi cəhətdən stabil ölkələr sırasında dünyanın ilk beşliyinə daxildir.

***Ayaz Musayev***
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının baş müəllimi*

# Medianın üçüncü gözü: dron jurnalistikası...

***Son illərdə texnologiya və idarəetmə sistemlərinin təkamülü nəticəsində dron qurğularına tələbat günü-gündən artır və biz bu ifadəyə KİV-də mütəmadi olaraq rast gəlməyə başlamışıq. Dilçi və leksikoloq Ben Zimmerə görə ingilis dilli lüğətlərdə "Vızıltı", "Erkək arı" mənasında işlənən dron ifadəsi, 1935-ci ildən radio ilə idarəolunan DH.82B "Queen Bee" təyyarələrinin nümayişindən sonra termin kimi istifadə olunmağa başlayıb. Bundan əlavə dron ifadəsi "Pilotsuz uça bilən vasitələr", "Uzaqdan idarə olunan hava vasitələri" kimi də istifadə olunur.*** *Pilotsuz uçuş aparatları (Dronlar) - uçuşunu bortunda komandir olmadan həyata keçirən, uzaq məsafədən, yerdən, havadan, gəmidən, kosmosdan tam idarə edilən və yaxud da tam avtonom şəkildə proqramlaşdırılan hava vasitələridir.*

1858-ci ildə Nadar adı ilə tanınan əsl adı isə Qaspar Feliks Turnaşon olan məşhur Fransız fotoqraf ilk dəfə 80 metr yüksəkliyə qalxaraq istədiyi fotonu əldə edə bilmişdir. Bu haqda 1862-ci ildə XIX əsrin ən böyük karikatura ustalarından biri Onore Domye "Nadar fotonu incəsənətin yüksəkliyinə qaldırdı " başlığı altında onun karikaturasını çəkərək çap etdirmişdi. Təəssüflər olsun ki, Nadarın səmadan çəkdiyi bu fotonu uzun müddət mühafizə etmək mümkün olmadı.

2 il sonra 1860-cı ildə ABŞ-da hava şarının köməyi ilə uğurlu fotoşəkil çəkildi. Beləliklə də səmadan çəkilən və bu günə gəlib çatan foto məhz bu şəkil hesab edilir. Vaxtilə səmadan yeri çəkmək üçün çərpələnglərdən və göyərçinlərdən də istifadə olunmuşdur. İlk dron qurğusu isə 1916-cı ildə ingilis mühəndisi və tədqiqatçısı Arçibald Montqomeri Lou tərəfindən yaradılıb. Bu qurğular "Hewit Sperry" adlanıb və məhdud sayda I Dünya müharibəsində havadan mərmi yağdırmaq üçün istifadə edilirdi. Dronların kameralarla təchiz olunması isə Vyetnam müharibəsi zamanı geniş vüsət aldı.



*Jurnalistikada dronlardan istifadə XXI əsrin əvvəllərindən başlasa da, səmadan fotoların çəkilməsi təyyarənin kəşfindən də əvvəlki dövrə gedib çıxır*

***Jurnalistikada isə dronlardan 2011-ci ildən istifadə olunmağa başlanıldı. Belə ki, həmin il Yaponiyada zəlzələdən sonra baş vermiş sunami nəticəsində Fukuşima Atom Elektrik Stansiyası sıradan çıxmışdır. Bu dağıntı nəticəsində güclü radiasiya yaranmış, stansiyaya daxil olmaq çətinləşmiş, zərəri müəyyənləşdirmək və xilasetmə işlərini həyata keçirmək üçün dronlardan istifadə olunmuşdur.*** Rəsmi qurumlar tərəfindən həyata keçirilən bu dron çəkilişləri mediada yayımlanmış və böyük marağa səbəb olmuşdur. Bu hadisə dronlardan insan sağlamlığı üçün riskli olan bölgələrdən informasiya və görüntü əldə etmək məqsədilə istifadə etmək məsələsini aktuallaşdırdı. Bu da öz növbəsində media mütəxəssislərini pilotsuz jurnalistikanın imkanları ilə maraqlanmağa həvəsləndirdi. Həmin hadisədən sonra New York Times "Dron Jurnalistika gəlir" başlığı ilə xəbər yayımladı. Dron Jurnalistikası drondan istifadə edilərək media üçün xəbər toplama mənasını verir.

Pilotsuz nəqliyyat vasitələrinin xəbər və məlumat toplama vasitələri kimi istifadəsi ilə bağlı araşdırma və tərcübələr çoxaldı, bu qurğuların etikasını öyrənmək və ən yaxşı təcrübə təlimatlarını yaymaq məqsədi ilə bir sıra tədbirlər görüldü. Silahlı qarşıdurmalar zamanı münaqişə bölgəsində fotoşəkil və ya görüntü əldə etmənin nə qədər çətin və təhlükəli olduğu heç kim üçün sirr deyil. Belə hallarda müxbirlərin həyatını təhlükə altına atmamaq üçün dronlardan istifadənin nə qədər önəmli olması da diqqətdən yayınmamalıdır.

*Həmçinin dronlar müxbir iştirak etmədən istintaq və reportyor jurnalistika üçün də bir çox imkanlar təklif edir. Belə ki, qanunsuz fəaliyyət haqqında məlumat əldə etmək məqsədilə dronlar istifadə oluna bilər. Son xəbərləri operativ işıqlandırmaq üçün də bu qurğular çox münasibdir. Müqayisədə helikopteri icarəyə götürmək daha çox vaxt və çox pul tələb etsə də, bu qurğularla çəkiliş aparmaq xərcləri azaldır.*

Dronlar panoram mənzərələri əldə etmək, izləmək üçün idealdır və izləyiciləri təəccüblü vizual məlumatlarla (nümayiş, etiraz və s.) təmin edə bilir. Digər tərəfdən dronlarla xəbər , videogörüntü əldə etmək daha asan olmaqla yanaşı, onunla hazırlanmış xəbər auditoriya tərəfindən daha yaxşı mənimsənilir və qəbul edilir. Bu görüntüləri müxtəlif bucaqdan və yüksəklikdən tutmaq olur. Dronlardan idman yarışlarında istifadənin üstünlükləri də heç kim üçün sirr deyil. Bu qurğularla çəkiliş aparmaq xərcləri azaldır. Belə ki, pilotsuz film çəkmək həmişə idarə olunan təyyarə ilə bunu etməkdən daha ucuz başa gəlir. Dronların üstün cəhətləriylə yanaşı bu qurğuların çatışmayan cəhətləri də mövcuddur. Məsələn, dron texnologiyası artıq müəyyən qədər keyfiyyətli fotoşəkilləri və görüntüləri təqdim etmək üçün yararlı olsa da, stabilizatorlar, uçuş diapazonları və mühərriklərin səs-küyü ilə əlaqədar hələ çox iş görülməlidir.

Bundan başqa dron texnologiyasının maliyyə dəyəri ilə əlaqədar problemlər də var. Belə ki, hazırda daha ucuz qiymətə dron almaq mümkün olsa da ancaq hələ də professional görüntü əldə etmək üçün lazım olan dronlar bahadır. Eyni zamanda bu qurğuların səmada digər dron və ya yad cisimlə toqquşma ehtimalı daha çoxdur.

***Bu gün dron jurnalistikası ilə bağlı çox saylı veb sayt, bloq, təlim forumu hətta akademik tədris proqramları yaradılır ki, bu da dronların istifadəsinin sürətlə yayılmasında əsas faktorlardan biridir.***

Eyni zamanda, bu qurğuların xəbərləri toplama üçün digər görüntülü texnologiyalardan üstün cəhətləri onların istifadəsi ilə bağlı müəyyən şərtlər də yaradır. Ölkənin , hava məkanının təhlükəsizliyi, məxfiliyin qorunması kimi daha çox təhlükəsizlik baxımından əsaslı narahatlıqlar doğurur və bu səbəblərə görə dronların istifadəsini məhdudlaşdıran hüquqi tənzimləmələr müəyyən olunur. Dronlar mediada daha çox istifadə edildikcə bu cihazların qanunla istifadəsinin tənzimlənməsi məsələsi daha da aktuallaşır.

**Əli Hacıyev,**
*Multimedia və elektron kommunikasiya kafedrasının baş müəllimi*

REKTORLARIMIZ... "Şərqin ilk dünyəvi ali təhsil ocağı" olan BDU-ya kimlər rəhbərlik edib?

## Təzyiqlər onu da "səhhətindən şikayətlənməyə" vadar etdi

***Cümhuriyyətin süqutundan sonra bolşeviklər Cümhuriyyət dövrünün idarəetmə aparatını dağıdaraq inzibati amirənəlik "idarəetmə" sistemini yaratmağa başladılar. Ölkədə qurulan bu amirənəlik rejimi "Azərbaycan xalqının milli dövlətçilik ənənələrini, milli ruhunu məhv etməyə istiqamətləndirildi. Bu ilk olaraq təhsildən başladı. Xüsusən də yeni yaradılan BDU-dan. Respublikanın Sovet Rusiyası tərəfindən idarə edilməsi BDU-nun da işinin məzmununu tamamilə dəyişməyə istiqamətləndirilsə də "mahiyyəti - vətən övladlarına ziyan vermək amalı heç vaxt dəyişmədi".*** Bolşeviklər "milli ruhlu alimləri və müəllimləri tədris prosesindən uzaqlaşdırmağa start verdilər". Əksər mənbələrdə qeyd edilir ki, V.İ.Razumovskidən sonra BDU-nun ikinci rektoru Sergey Nikolayeviç Davidenkov olub. Amma əslində o zaman siyasi vəziyyət çox gərgin olduğu üçün yeni yaranan hökumət bir neçə ay ərzində universitetə 2-3 rektor təyin edib. Məsələn, "1920-ci il iyunun 15-də Birləşmiş cəmiyyətlər şurası 1920-ci ilin iyun-avqust aylarında tibb fakültəsinin dekanı, professor İ.İ.Şirokoqorovu rektor seçdi. 1920-ci ilin avqustunda o, vəba epidemiyasına qarşı mübarizəni təşkil etmək üçün Batuma yollandı. Rektor vəzifəsini müvəqqəti icra etmək tibb fakültəsinin dekanı A.M.Levinə və tarix-filologiya fakültəsinin dekanı N.A.Dubrovskiyə tapşırıldı".

BDU-nun yaranma tarixi ilə bağlı arxiv materiallarından və araşdırmalardan aydın olur ki, o illərdə universitetin "rektor və prorektorları bu cür seçilirdi: əvvəlcə gizli məktublar vermək yolu ilə səsə qoyulmaq üçün namizədlər göstərilirdi. Göstərilən hər bir namizəd haqqında verilmiş məktubların sayı hesablanırdı. Bəziləri özləri haqqında az məktub verildiyini görəndə səsə qoyulmaqdan imtina edirdilər. Bundan sonra gizli səsvermə keçirilirdi. Səslərin çoxunu toplayan şəxs bir il müddətinə rektor və ya prorektor olurdu". BDU-ya 1920-ci ilin 23 noyabrından 1923-cü ilin 29-sentyabrına kimi rəhbərlik edən S.N.Davidenkov gizli səsvermə yolu ilə 1921, 1922 və 1923-cü illərdə rektor seçilir. Səsvermə protokolları ilə tanışlıq belə deməyə əsas verir ki, digər namizədlərə nisbətən universitet kollektivi arasında S.N.Davidenkovun böyük hörməti-izzəti olub.

*1880-ci ildə müəllim ailəsində anadan olan Sergey seminariya təhsili aldıqdan sonra, Moskva Dövlət Universitetinə qəbul olub və 1904-cü ildə universiteti bitirib.* 1912-ci ildən S.N.Davidenkov Xarkov Qadın Tibb İnstitutunun Sinir və Zehni xəstəliklər kafedrasında işləyib. "Klinik neyrogenetikanın qurucusu kimi tanınan S.N.Davidenkov həm də bu terminin müəllifidir. O, dünyada ilk tibbi genetik məsləhətin təşkilatçısıdır". 1920-ci ildə BDU-da işləmək üçün Bakıya gələn məşhur nevropatoloq əvvəl BDU-nun tibb fakültəsində çalışıb.



Sergey Nikolayeviç Davidenkov

*Davidenkovun rəhbərliyi dövründə ilk olaraq "Xalq Maarif Komissarlığının 6 dekabr 1922-ci il kollegiyasının qərarına əsasən Bakı Dövlət Universitetinin adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti adlandırıldı".* Bundan sonra univesitetlə bağlı bütün qərarlar mərkəzdən ünvanlanır və onların həyata keçirilməsi məcburi idi. Sovetləşmə siyasətini aparan hökumət milli ruhlu ziyalıları universitet həyatından uzaqlaşdırmaq üçün "təmizləmə" işlərinə başlayaraq təhsili sovet ideologiyasına uyğun istiqamətləndirdi. Bu proses daha çox BDU-ya şamil edildi. Çünki milli ruhlu ziyalıların toplaşdığı bu təhsil ocağı Mərkəzin sovetləşmə siyasətini həyata keçirmək üçün bir maneə ola bilərdi. Odur ki, respublika daxilində "Millətçi ovu"na çıxanlar milli ruhlu kommunistləri təzyiqlər və təqiblər nəticəsində elə bir vəziyyətə saldılar ki, onlar mərkəzin göstərişlərini müti şəkildə həyata keçirməyə məcbur oldular. Hətta bu

### BDU-nun ikinci rektoru Sergey Nikolayeviç Davidenkov olub

proses tələbələrə də şamil edildi. *Xalq Maarif Komissarlığının yerli-yersiz sərəncamları tez bir zamanda S.N.Davidenkovu da V.İ.Razumovski kimi "səhhətindən şikayətlənməsinə" gətirib çıxardı. O, 1923-cü il sentyabrın 29-da ərizə yazaraq "xəstəliyinə və ailə şəraitinə görə" universitetin rektoru vəzifəsindən "imtina" etdi.* 1925-ci ildə Bakını birdəfəlik tərk edən S.N.Davidenkov Sankt-Peterburqa qayıdaraq, Həkimləri Təkmilləşdirilməsi İnstitutunda işə başlayıb. Sovetlər də onun əməyini yüksək qiymətləndirib. SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi olan N.S.Davidenkov Lenin ordeni və digər medallarla təltif olunub. Bir faktı da qeyd edək ki, universitetin tarixi ilə bağlı yazılan məqalələr, əsərlər arasında V.İ.Razumovskinin "Bakı şəhərində universitetin yaradılması" adlı tarixi oçerki də dəyərli bir mənbədir.

1950-ci ildə S.N.Davidenkovun şəxsi həyatında baş verən hadisə onu çox sarsıdır. Yeganə övladı Nikolayın (34-yaşında) qəfil ölümü S.N.Davidenkovu yatağa salır. O, 1961-ci ildə 81-yaşında dünyasını dəyişir.

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrası, dosent*

## Əli bəy Hüseynzadə haqqında ilk fundamental biblioqrafiya



*"Mütərcim" nəşriyyatında "Əli bəy Hüseynzadə-biblioqrafik monoqrafiya "adlı yeni kitab işıq üzü görüb. Biblioqrafik monoqrafiya Bakı Dövlət Universitetinin Biblioqrafiyaşünaslıq kafedrasının və AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun qərarı ilə nəşr edilib.* Kitabın elmi redaktoru Biblioqrafiyaşünaslıq kafedrasının müdiri dosent Nadir İsmayılov və filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva -Kəngərlidir. Tərtibçi -müəllif Biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşı, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı Vəzufə Xudiyevadır.

XX əsr Azərbaycan-türk ictimai fikir tarixinin ən görkəmli nümayəndələrindən biri, tanınmış maarifçi və yazıçı- publisist Əli bəy Hüseynzadəyə həsr olunmuş bu əsər alimin həyatı, elmi- pedoqoji, ictimai -siyasi və təşkilati fəaliyyətini əks etdirən ilk biblioqrafik xarakterli monoqrafiyadır. Kitabda mütəfəkkirin fəaliyyətinə dair 1890-2019-cı illərin faktları əhatə olunub. Biblioqrafik monoqrafiya 9 bölmədən ibarətdir. "Əli bəy Hüseynzadə" fundomental monoqrafiyanın əhəmiyyətli cəhətlərindən biri də ənənəvi çap məhsulları ilə yanaşı, görkəmli ədibin İstiqlal Muzeyində, Ege Universitetində, Azərbaycan Respublikası Dövlət Arxivində qorunan qiymətli materiallarının, əlyazmalarının, məktublarının və şəxsi arxiv sənədlərini, o cümlədən elektron resursları da əhatə etməsi və həmin materialların biblioqrafiyaya əlavələr şəklində verilməsidir.

Biblioqrafik monoqrafiya filologiya, tarıx, biblioqrafiyaşünaslıq elmlərinin müxtəlif istiqamətləri üzrə elmi -tədqiqat işi aparan, ali məktəb müəllimləri və tələbələri, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Aynur Qurbanqızı,***
***Nəşriyyat, komputer tərtibatçısı***

TƏLƏBƏ GUŞƏSİ

# BDU-da fəaliyyət göstərən Konfutsi mərkəzi

## "Konfutsi" mərkəzində tədris Bakı Dövlət Univeristetinin tələbələri üçün ödənişsizdir

***Hər kəsə məlumdur ki, dünyada ən çox əhaliyə sahib ölkə Çindir. Yəqin ki, Yer üzərində yaşayan hər 5 adamdan birinin çinli olduğunu demək təsəvvürümüzü daha da konkretləşdirməyə kömək edər. Qədim tarixi olan bu ölkə dünya mədəniyyətinə kağız, ipək parça, kompas, barıt kimi unikal dəyərlər bəxş edib. Ölkəmizdə çinlilərə tez-tez rast gəlmək mümkündür.*** Azərbaycanda turizmin necə deyərlər çiçəklənmə dövrünü yaşadığı bir vaxtda çindən gələn turistlərə paytaxt ərazisində tez-tez rast gəlirik. Bundan başqa Azərbaycanla Çin arasındakı iqtisadi əlaqələr fonunda bura çalışmağa gələn Çin vətəndaşları da az deyil. Bu qədim asiya xalqının adət-ənənələri özünəməxsusluğu ilə seçilir. İnanc baxımından çinlilərin əsas hissəsi buddistdir.

Müasir dövrün texnologiyalar ölkəsi kimi tanınan, geniş torpaqlara, zəngin təbii sərvətlərə malik Çin Şərqi Asiyada yerləşir. Sahəsinə görə üçüncü yerdə qərarlaşan Çində əhalinin 70 faizdən çoxu Konfutsionizm, Tauizm və Çin Buddizmi dinlərinə inanır. 2 faizdən çox insan Xristian, az bir qism əhali isə müsəlmandır. Yeri gəlmişkən Konfutsionizm Çində həmçinin təlim metodu hesab olunur.

Çinlə-Azərbaycan arasında diplomatik əlaqələr qurulub. Dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir. 2011-ci ildən Bakı Dövlət Univeristetinin nəzdində Konfutsi mərkəzi fəaliyyət göstərir. Mərkəzin direktoru Lou Sia Co deyir ki, burada çinli tələbələrlə yanaşı çox sayda əcnəbi tələbə də təhsil alır: "Konfutsi institutu Çin mədəniyyətini, adət-ənənələrini və dilini öyrənmək istəyən tələbələr üçündür. Mərkəz Bakı Dövlət Univeristeti ilə Çinin mədəniyyət nazirliyinin birgə layihəsi olaraq 2011-ci ildə açılıb. Fəaliyyətə başladığı gündən bu günə qədər mərkəzdə yüzlərlə tələbə çin dilini öyrənib. Burada 12 çinli müəllim çalışır". Çinli müəllim Çen Qi azərbaycanlı tələbələrin də Çin dilinə böyük maraq göstərdiyini dilə gətirir: "Mən burada çin dilinin tədrisi ilə məşğul oluram. Əsasən, Azərbaycanlı tələbələrlə. Bura gəldiyim bir neçə aydır, ancaq görürəm ki, tələbələrin çin dilinə marağı çox böyükdür. Düzdür onlar üçün bir qədər çətindir çünki dilin qanunauyğunluqları fərqlidir. Tələbələrim çin dilində mən isə Azərbaycan dilində bilmirəm. Buna görə də bəzən aramızda anlaşmaq çətin olur. Ona görə də hər ikimizin ortaq danışdığı hər hansı bir dildən istifadə edirik".

Qeyd edək ki "Konfutsi" mərkəzində tədris Bakı Dövlət Univeristetinin tələbələri üçün ödənişsizdir. O ki qaldı Çin dilini öyrənmək istəyən başqa insanlara onlar bunun üçün az miqdarda ödəniş etməli olacaqlar.

***Yetər Kərimli,***
*Jurnalistika fakültəsinin magistrantı*

# Kitab bağışlama günü münasibətilə aksiya keçirilib



Bakı Dövlət Universitetinin (BDU) Elmi Kitabxanasının təşəbbüsü ilə "Gənc İstedadlar" liseyində 14 Fevral Beynəlxalq kitab bağışlama günü münasibətilə aksiya keçirilib. Uşaqların dünyagörüşünün inkişafında və artırılmasında kitabların rolunun və mütaliənin əhəmiyyətini nəzərə alaraq keçirilən aksiyanın əsas məqsədi kitaba qarşı həvəsin yaradılmasıdır. Beynəlxalq gün münasibətilə keçirilən aksiya şagirdlərin mütaliə mədəniyyətini yüksəltmək, uşaqlarda kitab oxuma vərdişinin formalaşmasına dəstək olmaqdır. Uşaqların inkişafında kitab mütaliəsinin önəmli yer tutduğunu nəzərə alaraq Elmi Kitabxana "Gənc İstedadlar" liseyinin şagirdlərinə elmi kitabxananın ehtiyat fondundan 50-yə yaxın kitab hədiyyə edib.

"Gənc istedadlar" liseyinin rəhbərliyi keçirilən aksiyanın təşkilinə görə Universitet rəhbərliyinə təşəkkür edib.

# Jurnalistika fakültəsinin tələbələri növbəti təlimi uğurla başa vurub



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Türkiyə Radio-televiziya Qurumunun (TRT) əməkdaşlığı ilə Bakıda təşkil olunan "Yeni media və xəbərçilik" təhsil seminarının bağlanış mərasimi keçirilib. 17-21 fevral tarixlərində keçirilən təlimdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 5 nəfər tələbəsi iştirak edib. Təlim çərçivəsində rəqəmsal media fəaliyyəti, sosial media marketinqi, rəqəmsal medianın idarə edilməsi, multimedia xəbər texnikası, beynəlxalq jurnalistikada xəbər iqtisadiyyatı, mobil təbiqetmə kimi mövzularda aydınlıq gətirilib.

Müasir dünyada rəqəmsal medianın geniş imkanlarından danışan Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral jurnalistikanın inkişaf edən dünyaya və yeni media meyillərinə uyğunlaşmasının əhəmiyyətli olduğunu, Azərbaycanla hər sahədə həyata keçirilən əməkdaşlığın bu mövzuda da davam etdirildiyini söyləyib. Sonda təlimi uğurla başa vuranlara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, təlimləri TRT-nin əməkdaşı Ömər Darbaz keçib. Layihə çərçivəsində ilk mərhələnin seçimləri Azərbaycanla yanaşı Qazaxıstan, Özbəkistan və Qırğızıstanda da baş tutacaq. Birinci mərhələdə müvəffəqiyyət qazanan iştirakçılar aprel ayında İstanbul və Ankarada təcrübə keçmək imkanı əldə edəcək.




# UNİVERSİTET XƏBƏRLƏRİ

## Gənclər Gününə həsr olunmuş tədbir keçirilib



*2 fevral - Gənclər Günü" münasibətilə tədbir keçirilib. Tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb. Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev tədbiri giriş sözü ilə açaraq gəncləri "Gənclər Günü" münasibətilə təbrik edib.* Ulu Öndər Heydər Əliyevin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarixin "Azərbaycan Gəncləri Günü" kimi qeyd edilməsini dövlətimizin apardığı gənclər siyasətinin bariz nümunəsi olduğunu diqqətə çatdırıb. Azərbaycanın bütün sahələrdə inkişafı, aparılan uğurlu gənclər siyasətindən bəhs edən rektor 100 illik yubileyini qeyd edən Bakı Dövlət Universitetinin ölkənin kadr ehtiyatını təmin etməkdə mühüm rol oynadığını bildirib.

Sonra Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov, Kitabxanaçılıq və informasiya fakültəsinin dekan müavini Ələmdar Cabbarov və Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin I kurs tələbəsi Kənan Seyfullazadə çıxış ediblər.

Çıxışlarda Prezident İlham Əliyevin 2019-cu il 30 dekabr tarixli Sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi, gənclərin könüllü fəaliyyətinə cəlb olunması, dövlətimizin ümumilikdə gənclərin inkişafına xüsusi diqqəti və gənclər siyasətinin prioritet olaraq müəyyən olunması qeyd olunub. Sonda çıxışcılar gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəallığının artırılması işində böyük rol oynadığını qeyd edərək bütün gəncləri təbrik ediblər. Tədbir konsert proqramı ilə başa çatıb.

## Mədəniyyət-yaradıcılıq Mərkəzində ilk ədəbi-bədii tədbir baş tutub




Universitetdə yeni yaradılan Mədəniyyət-yaradıcılıq Mərkəzində ilk ədəbi-bədii tədbir keçirilib. Dəstəyə görə universitet rəhbərliyinə təşəkkürünü bildirən Mərkəzin direktoru Nailə Mirməmmədli tələbələrin sosial fəallığının artırılması, ictimai fəaliyyətinin stimullaşdırılması üçün əlindən gələni edəcəyini deyib və onları Mərkəzin işində yaxından iştirak etməyə çağırıb: "Azərbaycanın flaqman ali məktəbi sayılan Bakı Dövlət Universitetində Mədəniyyət-yaradıcılıq Mərkəzinin açılışı təhsil və mədəniyyət sahəsində vacib hadisədir. Mərkəz Azərbaycanın zəngin mədəniyyət və incəsənətinin, onun tarixi və ədəbiyyatının təbliği üçün əlverişli platforma olacaq". Nailə Mirməmmədli fakültə rəhbərlərini Mərkəzə üzv olmaqda, Azərbaycan mədəni zövqünün qorunub saxlanılmasında tələbələrə dəstək olmağa çağırıb.

Tədbir konsert proqramı ilə davam edib. Tələbələrin iştirakı ilə milli rəqslər və musiqi nömrələri ifa edilib. Qeyd edək ki, Mədəniyyət-yaradıcılıq Mərkəzi "Qabiliyyətlə qalibiyyət qazanaq" müsabiqəsinin keçirilməsini planlaşdırır. Müsabiqənin keçirilməsində məqsəd yaradıcı gənclərin potensialını üzə çıxarmaq, onları Mərkəzə cəlb etmək, tələbə ssenariləri əsasında bədii kompozisiyalar, komediya və dramların səhnələşdirilməsidir.

## BDU-nun dissertantı Prezident mükafatına layiq görülüb



Kimya fakültəsinin dissertantı və "Zərif üzvi sintez" elmi-tədqiqat laboratoriyasının elmi işçisi Sərvinaz Hacıyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elm nominasiyası üzrə Gənclər üçün Prezident mükafatına layiq görülüb.

İlk elmi fəaliyyətinə BDU-nun Nanoaraşdırmalar Mərkəzində böyük laborant vəzifəsində başlayan S. Hacıyeva hazırda Kimya fakültəsinin "Zərif üzvi sintez" elmi-tədqiqat laboratoriyasında elmi işçi kimi çalışır.

**Buraxılışa məsul redaktor:**
Afaq Sadıqova

**Redaksiya heyəti**
Əliş Ağamirzəyev
Vüqar Ziferoğlu
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

**Çapa imzalandı:** 28.02.2020
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır